Academic Journal of History and Idea Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292

*Araştırma Makalesi* https://doi.org/10.46868/atdd.136 *Original Article*

# Azərbaycan Siyasi Təşkilatları və Bakıda İnqilabi-Demokratik Hakimiyyət (Mart 1917- Mart 1918)

**Aygün Əzimova***

**ORCID:0000-0002-1119-1856**

**Xülasə**

Məqalədə Azərbaycan siyasi təşkilatlarının Fevral burjua-demokratik inqilabından sonra Bakıda yaranan Fəhlə və Əsgər Deputatları Soveti (Bakı Soveti) timsalında inqilabi-demokratik hakimiyyətə münasibəti və onun işində iştirakı təhlil edilmişdir. Bakı Sovetinin fəaliyyətinin anti-Azərbaycan mahiyyətindən dolayı müxtəlif təmayüllü – milli-demokratik və sosialist siyasi qüvvələrinin bu orqanın işində iştirakı da maraq kəsb edir. Araşdırma zamaı dövr tarixinin öyrənilməsində mühüm mənbə olan mətbuatda yer alan xəbərlər, analitik məqalələr, oçerklər, hadisə iştirakçılarının xatirələri və arxiv materialları əsasında Bakıdakı siyasi qüvvələrin fəaliyyətini hərtərəfli təhlil etmək mümkün olmuşdur. Azərbaycanlılar Bakı əhalisinin və fəhlələrinin əksəriyyətini təşkil etsələr də, Bakı Sovetində yetərincə təmsil olunmamışdılar. Bu isə ilk növbədə müsəlmanları siyasi və sinfi düşüncə cəhətdən yetkin hesab etməyən qeyri-azərbaycanlı inqilabçı demokratlar və ya sosialistlərin münasibətindən irəli gəlirdi. Sovetin əksəriyyətini təşkil edən bu qüvvələr müsəlman fəhlələrin dəstək verdiyi Müsavat partiyasının Sovetə keçməsi qarşısında maneə yaradırdılar. Mart hadisələrinə qədər müsəlman fəhlələr arasında demokratik təşkilatlarda müsəlmanların proporsionallıq əsasında təmsil olunması tələbləri aktual olaraq qalmışdı. Hümmətçilər və müsəlman eserlərin Sovetə keçirdikləri bir neçə nümayəndə bu tələbi təmin etmirdi. Araşdırılan məsələ həmçinin Bakıda siyasi qüvvvələrin mübarizəsinə milli amillərin həlledici təsirindən danışmağa imkan verir.

**Açar sözlər:** Bakı Soveti, müsəlman fəhlələr, Müsavat partiyası, bolşeviklər, Hümmət təşkilatı

**Gönderme Tarihi: 20/06/2021** **Kabul Tarihi:19/08/2021**

* *Böyük elmi işçi, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Bakı -Azerbaycan, aygun.azimova77@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
ƏZIMOVA, A., ‘’ Azərbaycan Siyasi Təşkilatları və Bakıda İnqilabi-Demokratik Hakimiyyət (Mart 1917- Mart 1918)’’, *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 3, 2021, s.831-853.

# Azerbaijani Political Organizations And The Revolutionary Democratic Government In Baku (March 1917 – March 1918)

**Aygün Əzimova***

**ORCID:0000-0002-1119-1856**

## Abstract

This article analyzes the attitude of Azerbaijani political organizations towards the revolutionary democratic government and their participation in its work, based on the example of the Soviet of Workers and Soldiers Deputies (Baku Soviet), which was formed in Baku after the February bourgeois democratic revolution. The participation of diverse national-democratic and socialist political forces of Azerbaijan in the work of Baku Soviet is also of interest, due to the the anti-Azerbaijani nature of the activities of the Baku Soviet within the revolutionary democratic government. During the research, it was possible to comprehensively analyze the activities of political forces in Baku on the basis of media reports, analytical articles, essays, memoirs of participants and archival materials, which are important sources in the study of the history of the period. It was found that although Azerbaijanis (Muslims) constituted the majority of the population and workers of Baku, they were not represented proportionately in the Baku Soviet. Primarily, this was due to the attitude of non-Azerbaijani revolutionary democrats or socialists, who considered Muslims to be ignorant in terms of politics and class. These forces, which constituted the majority in the Baku Soviet, prevented the Musavat party, supported by Muslim workers, from joining the Baku Soviet. Before the March events, Muslim workers highlighted the requirement for proportional representation of Muslims in democratic organizations. Several representatives were transferred to the Baku Soviet, by Hummetists and Muslim Socialist-Revolutionaries, but this was not seen as sufficient. The article also addresses the crucial impact of national factors with respect to the struggle between political forces in Baku.

**Keywords:** Baku Soviet, Muslim workers, “Musavat” Party, bolsheviks, “Hummet” organization.

**Received Date: 20/06/2021** **Accepted Date: 19/08/2021**

---

**Great researcher, Institute of History of Azerbaijan National Academy of Sciences, Baku-Azerbaijan, aygun.azimova77@gmail.com*

***You can refer to this article as follows:***
ƏZIMOVA, A., ‘’ Azərbaycan Siyasi Təşkilatları və Bakıda İnqilabi-Demokratik Hakimiyyət (Mart 1917- Mart 1918)’’, *Academic Journal of History and Idea,* Vol. 8, Issue 3, 2021, 2021, p.831-853.

# Азербайджанские Политические Организации и Революционно-Демократическая Власть в Баку (март 1917 - март 1918)

**Айгюн зимова***
**ORCID:0000-0002-1119-1856**

**Резюме**

В статье проанализировано отношение азербайджанских политических организаций к революционно- демократической власти их участие в его работе на примере Совета рабочих и солдатских депутатов (Бакинского Совета), сформированного в Баку после Февральской буржуазно-демократической революции. В связи с антиазербайджанским характером деятельности Бакинского Совета как органа революционно-демократического правительства, также представляет интерес участие различного толка принимающего участие в работе этого органа. В ходе исследования удалось всесторонне проанализировать деятельность политических сил в Баку на основе сообщений печати, аналитических статей, очерков, мемуаров и архивных материалов, являющихся важным источником в изучении истории того периода. Было установлено, что, азербайджанцы (мусульмане) составляющие большинство населения и в частности рабочие Баку, не были в достаточной степени представлены в Бакинском Совете. А это, в первую очередь исходило из отношения неазербайджанских революционных демократов так и социалистов, считающих мусульман политически и классово несознательными. Эти силы, составлявшие большинство в Совете, помешали партии «Мусават», поддерживаемой мусульманскими рабочими, присоединиться к Совету. До мартовских событий, требование пропорционального представительства мусульман в демократических организациях среди мусульманских рабочих, оставалось актуальным. Несколько представителей, переведенных в Совет гумметистами и мусульманскими эсерами, не удовлетворяли это требование. Рассматриваемый вопрос также позволяет говорить о решающем влиянии национальных факторов на борьбу политических сил в Баку.

**Ключевые слова:** Бакинский Совет, рабочие мусульмане, партия «Мусават», большевики, организация «Гуммат»

**Получено: 20/06/2021** **Принято: 19/08/2021**

---

***Великий исследователь, Институт Истории Национальной Академии Наук Азербайджана, Баку-Азербайджан,* *aygun.azimova77@gmail.com,*

***Ссылка на статью:***
ƏZIMOVA, A., ‘’ Azərbaycan Siyasi Təşkilatları və Bakıda İnqilabi-Demokratik Hakimiyyət (Mart 1917- Mart 1918)’’, *академическая история и мысль,* T.8, NO.3, 2021, C.831-853.

## Giriş

Rusiyada baş verən Fevral burjua-demokratik inqilabı milli əyalətlərdə də inqilabi-demokratik dəyişikliklərə rəvac verdi və ilk öncə bu özünü idarəçiliyin təşkilində göstərdi. Mərkəzdə Müvəqqəti Hökumətin timsalında burjua-demokratik və Petroqrad Fəhlə və Əsgər Deputatları Sovetinin (Petroqrad Soveti) timsalında isə inqilabi-demokratik hakimiyyət orqanları yarandığı kimi, yerlərdə – mühüm şəhər və qəza mərkəzlərində də bu cür orqanlar yaranmağa başladı. Hakimiyyətə dəstək və nəzarət məqsədilə təşkil olunan sovetlərin mövcudluğu ikihakimiyyətlilik vəziyyəti yaratmışdı. Bir qədər sonra hakimiyyətə iddialı olan bolşeviklərin fəaliyyətinin nəticəsində sovetlərin tədricən bütün hakimiyyəti mənimsəməsi prosesi getmiş, əyalətlərdə isə bu prosesə milli amillərin təsiri daha mürəkkəb vəziyyət yaratmışdı.

Bakı şəhərində də eyni proses gedirdi və 1917-1918-ci illərdə burada siyasi səhnənin əsas fiqurlarından biri Bakı Fəhlə və Əsgər Deputatları Soveti (Bakı Soveti) idi. Lakin hadisələrin gedişatı özünü inqilabi-demokratik hakimiyyət orqanı kimi təqdim edən Bakı Sovetinin götürdüyü siyasi kursun faktiki olaraq antiazərbaycan mahiyyəti daşıdığını göstərmişdi ki, bu da yalnız inqilabi maraqların milli maraqlara qarşı durması ilə bağlı deyildi.

"Çoxmillətli Bakı"da əhalinin və təbii ki, fəhlə kütləsinin də böyük hissəsi azərbaycanlılar (dövrün ictimai-siyasi leksionunda "müsəlmanlar") olduğu halda, burada yaranan Sovetə böyük əksəriyyətlə rus, erməni və s. millətlərdən olan fəhlələrinin nümayəndələri seçilmişdilər. Vaxtilə çarizm dövründə rus ordusunda xidmətdən azad edildiklərindən azərbaycanlılar digər inqilabi orqan – Əsgər Deputatları Sovetində də iştirak etmək imkanından da məhrum idilər.[1] Bununla belə, Bakı Sovetinin mövcud olduğu dövr ərzində onun tərkibinə hümmətçilər, müsəlman eserlər və müsavatçılar olmaqla az sayda da olsa azərbaycanlı nümayəndələr daxil olmuşdular. Məhz siyasi fəaliyyətinin antiazərbaycan mahiyyət daşıması məlum olduğundan bu hakimiyyət strukturunda azərbaycanlıların iştirakı

[1] Qadjibaba Azimov, *Velikiy oktyabr v Azerbaydajane* , Azerbaydjanskoye. Qosudarstvennoye İzdatelstvo, Baku 1987, s. 67.

məsələsi həmin dövrdə baş verən siyasi hadisələrin tədqiqində diqqət cəlb edən məsələlərdən biridir. Bu məsələnin araşdırılması Azərbaycan siyasi qüvvələrinin məqsəd və fəaliyyət taktikalarını, müsavatçılar və bolşeviklər arasında münasibətləri, eləcə də həmin dövrün siyasi mübarizəsində milli amilin rolunu daha obyektiv şəkildə təhlil etməyə imkan verir. Məsələ iki aspektdən – azərbaycanlıları təmsil edən siyasi təşkilatların Bakı Sovetində təmsil olunmaq istəyi və Bakı Soveti daxilindəki qüvvələrin buna münasibəti baxımından maraq kəsb edir.

**Bakı Fəhlələri Arasında Azərbaycanlılıarın Nisbəti**

Yarandığı vaxtdan etibarən sosialist təmayüllü qüvvələrin birgə fəaliyyət orqanı olan Bakı Soveti ictimai həyatın bir çox sahələrinə nüfuz etməkdə idi. Fevral inqilabından sonra ilk aylarda, yəni hələ siyasi partiyaların güclənmədiyi vaxtda inqilabçı demokratik qüvvələr Bakı Sovetində cəmlənmişdilər. Sovetlər qanunverici, icraedici, məhkəmə hakimiyyəti, şəhər özünüidarəsini, ərzaq təşkilatlarını, peşə ittifaqlarını əvəz edirdi.[2] Bakı Soveti yarandığı vaxtdan – 1917-ci ilin martından 1918-ci ilin martına kimi hakimiyyəti gah İctimai Təşkilatların İcraiyyə Komitəsi (İTİK), gah da Şəhər Duması ilə bölüşməli olmuşdu. Lakin bununla belə bütün bu dövr ərzində Sovetin siyasi rəqiblərini sıxışdıraraq əsas səlahiyyətləri öz əlində cəmləməsi prosesi getmişdi. Bu səbəbdən də yalnız azərbaycanlıları təmsil edən siyasi qüvvələr üçün də Sovetə seçilmək məsələsi xüsusi əhəmiyyət kəsb etmişdi.

Mart ayının 6-da S. Şaumyanın sədr seçildiyi Bakı Sovetinin ilk tərkibində azərbaycanlı fəhlələr qətiyyən təmsil olunmamışdılar. Halbuki bəhs edilən dövrdə Bakıda fəhlə sinfi arasında say üstünlüyü onlara məxsus idi. Hələ I Dünya müharibəsi ərəfəsində Bakıda fəhlələrin sayı 196 min nəfər idi ki, onların da 41,1 %-ni azərbaycanlılar, 27,5 %-ni ruslar, 17,7 %-ni ermənilər, 13,7 %-ni isə digər millətlər təşkil edirdilər.[3] Təkcə Bakının əsas sənaye sahəsi olan neft sənayesində fəhlələrin 51,9 faizi[4] azərbaycanlılardan ibarət idi. Tarixçi S.Əliyarov bu məsələni daha dəqiqliklə araşdıraraq belə nəticəyə gəlmişdi ki, Bakıda ixtisaslı fəhlələrin və ustaların 76,3 faizini qeyri-azərbaycanlılar, əksinə adi fəhlələrin 46, qara fəhlələrin isə 54 faizini isə azərbaycanlılar təşkil edirdilər və məhz bu kateqoriya fəhlələr

---

[2] *Azərbaycan tarixi,* C.5, Elm nəşriyyatı, Bakı 2001, s. 283.
[3] Qadjibaba Azimov, *a.g.e.,* s.26.
[4] Qurban Bayramov, *Q. Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə dövründə Bakı mədən-zavod komissiyaları (mart 1917-iyul1918)* Elm nəşriyyatı, Bakı 1968, s.22.

ümumi neft sənayesində çalışanların üçdə iki hissəsini əhatə edirdi.[5] Başqa sözlə, ən ağır vəziyyətdə olan azərbaycanlı fəhlələr idi.

Sovetin əsas qüvvələri olan eser (sosialist inqilabçılar) və menşeviklər (sosial-demokratlar) müsəlman fəhlələrinin siyasi baxımdan qeyri-şüurlu olmasını əsas gətirərək (Doğrudur, ümumi gerilik var idi, lakin S.M. Əfəndiyevin qeyd etdiyi kimi, bu həm də azərbaycanlılar arasında ixtisaslı fəhlələrin olmaması ilə bağlı idi.[6]) onların Sovetdə təmsil olunmasına laqeyd yanaşırdılar və hətta müəyyən hallarda maneçilik törədirdilər. Məhz bu cür münasibəti Müsavat partiyasının lideri M. Ə. Rəsulzadə öz yazılarında "solların səhvi" kimi xarakterizə etmişdi.[7]

## Bolşeviklər Azərbaycanlıların Bakı Sovetinə Daxil Edilməsi Təşəbbüsçüləri Kimi

Bir müddət sonra Sovetin rəhbərliyi yerli əhali arasında etimad qazanmaq zərurətini dərk edərək Bakı Sovetinə az sayda da olsa azərbaycanlıların, yerli partiya və təşkilatların nümayəndələrinin daxil edilməsinə imkan yaratmağa başladı.[8] Bu isə inqilabçı demokratların bir qolu olan eser və menşeviklərə qarşı getdikcə müxalifliyini artıran bolşeviklərin siyasi mövqeyi bağlı idi.

Aprel ayının əvvəlindən bolşeviklər Bakıda hakimyyətin sovetlərə keçməsi istiqamətində məqsədli fəaliyyətə başladıqlarından Bakı Sovetinin tərkibində bolşeviklərin sayının artırılması zərurəti yaranmışdı. İlk seçkidən sonra bolşeviklər özləri Sovetdə azlıqda idilər və oradakı 52 deputatın cəmi 9 nəfəri bolşevik idi. Bolşeviklərin Bakıda hələ zəif mövqeyi onları müsəlman fəhlələri öz tərəfinə çəkmək istiqamətində də iş görməyə vadar edirdi. Nəticədə isə Sovetə 20-22 aprel tarixlərində keçirilən əlavə seçkilərdə artıq müsəlman fəhlələrin təmsilçiləri də Sovetə keçmişdilər. Seçilənlər Musa Məmmədov, Munzafarov, S. M. Əfəndiyev, Əsgərov və B. Bünyadov və Məlik Yeqanov idi.[9]

Təbii ki, bu əhəmiyyətli göstərici hesab oluna bilməzdi. Bu səbəbdən mayın 19-da bolşevik təşkilatının Bakı Komitəsi öz tərəfindən müsəlmanlar arasında təbliğat işinin

---

[5] Suleyman Aliyarov, Çislennost, professionalnıy i natsionalnıy sostav Bakinskoqo proletariata v period pervoy mirovoy voynı, *Uçyoniye zapiski Bakinskoqo Qosudarstvennoqo Universiteta. Seriya istoriya i filosofiya,* S. 2, Baku 1967, s.35.
[6] Sultan Məcid Əfəndiyev, *Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən*, Azərnəşr, Bakı 1957, s.12.
[7] Məmməd Əmin Rəsulzadə, *Əsərləri 1917- aprel 1918*, C. 4, Qanun nəşriyyatı, Bakı 2013, s.223.
[8] Almaz İbrahimova, *Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər),* Elm nəşriyyatı, Bakı 2010, s.47.
[9] "Zasedaniya Soveta raboçih deputatov", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona,* 6 maya, №.29, Baku 1917, s.2-3; *Oçerki Kommunistiçeskoy partii Azerbaydjana,* Azerbaydjanskoye Qosdudarstvennoye İzdatelstvo, Baku 1963, s.221. *(Oşerki..., )*

gücləndirilməsi və Azərbaycan dilli (tatar dili kimi qeyd olunur) qəzetlərin buraxılması və müsəlmanların Bakı Sovetində nümayəndələrinin artırılması barədə qərar qəbul etmişdi. Bolşeviklərin əsas liderlərindən biri olan P. Caparidze isə müsəlman qrupunda iş aparmaq üçün təhkim edilmişdi.[10] Beləliklə, müsəlman fəhlələrin Bakı Sovetində təmsil edilməsi məsələsi də mövcud vəziyyətdə bolşeviklərin taktiki addımlarından birinə çevrilmişdi. Bakı fəhlələrinin əsas hissəsi azərbaycanlılar olduğu üçün bolşeviklərin bu taktiki addımı ilk baxışda məntiqə uyğun idi. Lakin eyni zamanda bolşeviklərin müsəlman fəhlələri cəlb etmək istəyi azərbaycanlılar arasında milli-demokratik hərəkatın qarşısını almaq istəyi ilə də bağlı idi. Hansı ki uğurlu nəticələnəcəyi halda bolşeviklərin sosialist ideyalarının reallaşması qarşısında maneəyə çevrilə bilərdi. Həmin vaxt Bakıda baş verən hadisələr də bolşeviklərin və Bakı Sovetindəki digər qüvvələrin müsəlmanları ciddiyə almalarını tələb edirdi.

**Ərzaq Komitəsinə Seçkilər və Azərbaycanlıların İctimai-Siyasi Fəallığının Nümayişi**

Məlum olduğu kimi, Fevral inqilabının təsiri ilə Azərbaycanda milli demokratik hərəkat başlamışdı. Mart ayında Müsavat partiyasının daxil olduğu milli qüvvələrin koordinasiya mərkəzi rolunu oynayan – Müsəlman Milli Şurası və onun icraiyyə orqanı Müvəqqəti Müsəlman Milli Komitəsi yaradılmışdı. Aprel ayında baş tutan Qafqaz müsəlmanları qurultayı isə ictimai- siyasi cəhətdən passiv hesab edilən müsəlman əhalinin (ən azından onun fəal nümayəndələrinin) demokratik dəyişiklikləri dəstəkləməsini göstərmişdi. Bir qədər sonra mayın 21-də mülki ərzaq komitələrinə keçirilən seçkilər (Həmin dövrdə Rusiyada müharibə vəziyyətindən dolayı ərzaq məsələsi, yəni ərzaq əldə edilməsi və onun düzgün bölüşdürülməsi və s. şəhərin ictimai-siyasi həyatının mühüm məsələlərindən biri idi. Ərzaq komitələri vətəndaşların bu işdə köməyindən istifadə məqsədilə təşkil olunurdu.) də inqilabdan sonrakı ilk aylarda azərbaycanlıların siyasi fəallığını nümayiş etdirmişdi.

Qeyd etmək lazımdır ki, hakimiyyət strukturlarında hələ ciddi təmsilçiliyə nail ola bilməyən Müsəlman Komitəsi yaradılacaq ərzaq komitələrində müsəlmanların proporsionallıq prinsipi əsasında təmsil edilməsini istəsə də, onun bu istəyi inqilabçı demokratlar – sosialistlər tərəfindən narazılıqla qarşılanmışdı.[11] Bununla belə, müsəlmanlar səslərin əksəriyyətini toplayaraq seçkilərdə üstünlük əldə etmişdilər.

**Azərbaycanlıların İdarəçilikdə Təmsil Olunmaması Məsələsi**

[10] "İz mestnoy partiynoy jizni", *Bakinskiy raboçiy,* 28 мaya, №.5, Baku 1917, s.3.
[11] "Baku 27 maya", *Kaspiy,* 27 May, №. 115, Baku 1917, s.6.

Seçkilərdən stimul alan Azərbaycan milli qüvvələri öz opponentlərinə qarşı daha cəsarətlə çıxış etməyə başlamışdılar. Lakin buna baxmayaraq Sovetin əsas tərkibi – eser və menşeviklər seçkiləri müsəlman millətçiliyi prizmasından qiymətləndirərək əvvəlki mövqelərini dəyişmirdilər. Bakı Sovetinin mətbuat orqanında müsəlman təşkilatlarının inqilaba düşmən qüvvələr sırasında sadalanması milli demokratların ciddi etirazına səbəb olmuşdu. Azərbaycanlı ziyalılar və demokratlar mətbuat səhifələrindəki yazılarında müsəlmanların idarəçilikdə təmsil olunmasının zəruriliyini getdikcə daha çox göstərirdilər. Sovetdə təmsil olunmuş qüvvələrə sual olunurdu ki, onların müsəlman proletariatını təşkilatlandırmaq istiqamətində real fəaliyyəti özünü nədə göstərmişdir və niyə görə müsəlman fəhlələr Bakı Sovetində proporsional və ya muxtar nümayəndəlik əldə edə bilməmişlər**?**[12] Demək olar ki, müsəlmanların Bakı Sovetinə daxil edilməsi bütün müsəlman ictimayətinin ciddi tələbinə çevrilmişdi. Müsəlmanlar təkçə Bakı Sovetində deyil, digər seçkili strukturlarda da özlərinin proporsionallıq əsasında təmsil olunmasını tələb edirdilər. Müsəlmanların obyektiv tələbləri Bakı Sovetinin eser-menşevik əqidəsində olan mətbuat orqanında müsəlman millətçiliyi kimi təqdim olunurdu.[13]

Bakı kimi milli ziddiyyətlərin hər an baş qaldırması üçün real zəmin olan şəhərin ictimai-siyasi həyatında baş verən hər bir problemin həlli də öz növbəsində milli münasibətlərdə ehtiyatlılığı tələb edirdi. Bu səbəbdən də azərbaycanlı demokratlar idarəçilikdə azərbaycanlıların təmsil olunmasına çalışırdılar. İyun ayının əvvəllərində Bakıya səfər edən Rusiya müsəlman hərbçilərinin nümayəndələri Uruz xan Hacı Murat və Osman Tokumbetov Bakı Sovetinin iclasında çıxış edərək müsəlmanların Sovetə daxil edilməsini təklif etmişdilər.[14] Onlar Bakıya Qafqazda müsəlmanların silahlanması ilə bağlı yayılan şaiyələrin yaratdığı gərgin vəziyyətlə əlaqədar gəlmişdilər. Bu vəziyyət Sovetin sözügedən iclasında müzakirə olunmuş və çıxış yollarından biri kimi məhz bu təklif irəli sürülmüşdü.

Beləliklə, əksəriyyətdə olan azərbaycanlıların Bakı Sovetinə daxil edilməsi zərurəti zamanın diktəsi kimi ortaya çıxmış və obyektiv olaraq şərtlənmişdi. Milli demokratik qüvvələr inqilabi dəyişiklikləri dəstəklədiklərindən Sovetə daxil olmağa maraq göstərirdilərsə, bolşeviklər də öz siyasi məqsədləri üçün yararlanmağa çalışırdılar. Təsadüfi deyil ki, müsəlmanların Sovetə daxil edilməsi məsələsi daha çox Bakı Sovetinin fəal üzvü

---

[12] "Baku 27 maya"................., s.6.
[13] "O natsionalizme", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona,* 6 iyunya, № 52, Baku 1917, s. 2-3.
[14] "Protokol obşeqo sobraniya Soveta 1 iyunya", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona*, 4 iyunya, №.29, Baku 191, s.4.

bolşevik Caparidzenin nitqlərində səslənirdi. İyunun 6-da Bakı Sovetinin iclasında o, "ölü canlar"ın Sovetdən uzaqlaşdırılması və müsəlmanların Sovetdə geniş təmsil olunmasına imkan yaradılmasını təklif etmişdi.[15]

**Hümmətçilərin Bakı Sovetinə Seçilməsi**

Bolşeviklərin müsəlmanların dəstəyini qazanmaq istiqamətində fəaliyyəti sosial-demokratik Hümmət təşkilatı vasitəsi ilə həyata keçirilirdi. 1904-cü ilə yaradılan Hümmət təşkilatı müsəlman fəhlələrini siyasi cəhətdən maarifləndirilməsi istiqmətində xeyli iş görmüşdü. Təqiblərə məruz qalaraq fəaliyyətini dayandıran təşkilat Fevral inqilabından sonra öz fəaliyyətini bərpa etmiş, mart ayının əvvəlində N. Nərimanov, D. Bünyadzadə, M. İsrfafilbəyov (Qədirli), H. Sultanov, M. Əzizbəyov daxil olmaqla Hümmətin Müvəqqəti komitəsi seçilmişdi.[16] Hümmət tam şəkildə müstəqil təşkilat olmayaraq RSDFP-nın Bakı Komitəsi yanında fəaliyyət göstərirdi. Müsəlman fəhlələrin istəyinə uyğun olaraq Hümmət muxtar təşkilat kimi saxlansa da Bakı Sovetinə seçilən hümmətçilər əlahiddə bir təşkilatı deyil, ümumən bolşevikləri təmsil edirdilər. Lakin onu da qeyd etmək lazımdır ki, inqilabın ilk aylarında müsəlman fəhlələr tərəfindən müstəqil müsəlman fəhlə komitəsi yaradılması və müsəlman fəhlələr arasında sosialist təbliğat aparılması tələbləri irəli sürülmüşdü.[17]

Artıq 1917-ci ilin iyunundan Bakıda bolşeviklər menşeviklərdən təşkilati cəhətdən ayrıldıqdan sonra hümmətçilərlə iş bir qədər intensivləşmiş, Hümmət təşkilatının fəalları bolşevik komitəsində də irəli çəkilmişdilər. Belə ki, iyunun 25-də yaradılan ayrıca bolşevik Bakı Komitəsinə Anaşkin, Basin, Varnaçev, Vatsek, Caparidze, Şaumyan, Naneyşvili və başqaları ilə yanaşı N. Nərimanov, M. İsrafilbəyli, S.M. Əfəndiyev, sonradan isə M. Əzizbəyov da daxil edilmişdi.[18] Bir qədər sonra 1917-ci ilin avqustunda Ümumrusiya bolşevik partiyasının VI qurultayında Bakı proletariatının Caparidze ilə yanaşı müsəlman fəhlələrin təmsilçisi olaraq A.Yusifovun da iştirak etməsi bolşeviklərin bu mövqeyindən irəli gəlirdi. Hətta o zaman azərbaycanlılar arasından qurultaya iki nümayəndə seçilmiş, lakin digər nümayəndə S.M.Əfəndiyev qurultaya gedə bilməmişdi.[19]

[15] "Protokol zasedaniya Soveta 6 iyunya", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona* , 11 iyunya, №57, Baku 1917, s.3.
[16] *Oçerki...,* s.212.
[17] Q. Azimov, *a. g.e,* s.33.
[18] *Oçerki...,* s. 218.
[19] Soltan Məcid Əfəndiyev, *Seçilmiş əsərləri,* C.1, Azərnəşr, Bakı 1988. s.9.

Azərbaycan sovet tarixşünaslığında ideoloji tələblərdən irəli gələrək Hümmətin siyasi çəkisi artırılması cəhdlərinə rəğmən qeyd etmək lazımdır ki, müsəlman fəhlə kütləsinin kifayət qədər çox olduğu bir yerdə də bəhs edilən dövrdə Hümmət təşkilatı güclü mövqe əldə edə bilməmişdi. Hümmətin Bakının mədən rayonların əksəriyyətində təşkilat özəkləri yox idi.[20] Hümmətçilər öz təbliğatlarında fəhlələri bolşeviklərə dəstək verməyə çağırır, Hümmət üçün ayrıca təbliğat işi aparılmırdı.[21] Bu bir tərəfdən ümumiyyətlə sinfi mübarizə ideyasının müsəlmanlar üçün yad olması ilə bağlı idisə, digər tərəfdən bu mübarizədə milli burjuaziyanın düşmən obrazında təqdim edilməsinin müsəlman fəhlələri çəkindirməsi ilə bağlı idi.

O cümlədən təşkilatın maliyyələşdirilməsinin çətinliyi də onun şinin intensivliyinə təsir edirdi. Hümmət təşkilatının gücləndirilməsi üçün həmin vaxt mümkün olduğundan az iş görülməsi aydındı. Belə ki, mart ayından fəaliyyətini təzələyən təşkilatın əsas təbliğat vasitəsi kimi eyniadlı qəzeti yalnız iyul ayının 3-də işıq üzü görmüşdü. "Hümmət" qəzetinin nəşri üçün təşkilata mərkəzi bolşevik təşkilatından 5000 rubl ayrılsa da, onun cəmi 1000 rublu,[22] Nərimanovun təkrar müraciətindən sonra isə daha 500 rubl göndərilmişdi.[23] Qəzet üçün mətbəə avadanlıqlarının alınması, şiriftlərin əldə edilməsi xeyli vəsait tələb edirdi. Təşkilat üzvlərinin üzvülük haqları isə cüzi vəsait idi. Geniş təbliğat aparmaq üçün maliyyə mənbəyinin də olması mühüm şərt idi.

Yeri gəlmişkən, Vətən tarixşünaslığında Bakı bolşeviklərinin Hümmətə münasibəti ilə bağlı fərqli bir fikir də mövcuddur. Belə ki, professor E. İsmayılov öz monoqrafiyasında müsəlmanları fəal şəkildə partiya işinə cəlb etməyə çalışan Caparizdzenin əksinə olaraq Şaumyanın bu işə laqeyd yanaşdığını göstərir və bolşeviklərin daha ambisiyalı lideri Şaumyanın Hümmət təşkilatına olan soyuq münasibətinə diqqət yönəldərək onun nitqlərində Hümmət təşkilatını təqdir edəcək fikirlərə rast gəlmədiyini qeyd edir. Müəllif lider mövqeyində olan erməni bolşevikinin deyil, müsəlman bolşevikin (Ə.Yusifovun – A.Ə ) VI qurulatyda iştirakını Bakının milli xüsusiyyətini tanıyan Stalinin iradəsi ilə əlaqələndirir. Onun fikrincə, erməni bolşevikin Bakı proletariatını təmsil etməsi Azərbaycanda və bütün

[20] K.amran Aqazade, O rabote partii "Adalet", *Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, (ARPİİSSA),* fond (f.) 276, siyahı (s.) 2, iş 35, vərəq (v.) 1-10., v.3; 1.v.8.
[21] *Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı:* Sənədlər toplusu, C..3 Çaşıoğlu nəşriyyatı, Bakı 2010, s.128.
[22] *Bolşeviki v borbe za pobedu sosialistiçeskoy revolyutsii v Azerbaydjane. Dokumentı i materialı 1917-1918 qq.* Azərbaycan Dövlət nəşriyyatı, Bakı 1957, s.160. (bundan sonra Bolşeviki v borbe.., )
[23] Pismo Narimanova, *ARPİİSSA,* f. 609, s.1, iş 206, v.1.

Cənubi Qafqazda antibolşevik əhvali-ruhiyyəyə stimul verə bilərdi.[24] Belə təsəvvür yaranır ki, Bakı Komitəsində Hümmət təşkilatına muxtar status verilməsi Şaumyanı qane etməmişdi.

Lakin hər halda bu da bir həqiqətdir ki, nə qədər fəhlələrin hüquqları barədə haqlı tələblər də irəli sürülsə də, müsəlman fəhlə üçün hələki bolşevizm beynəlmiləlçi deyil, konkret olaraq rus siyasi əqidəsi idi. Əksinə, inqilabın yaratdığı yeni ictimai-siyasi şəraitdə müsəlman fəhlələr ziyalı və burjuaziya ilə birlikdə ümumilli maraqlar ətrafında birləşməkdə idi.

**Müsavatçıların Sovetə Seçilmək Cəhdləri**

Hümmətdən fərqli olaraq azərbaycanlı fəhlələrin siyasi dəstəyini qazanan Azərbaycan milli demokrat hərəkatının lideri –Müsavat partiyasının artıq 1917-ci ilin ikinci yarısından etibarən Bakı Sovetində təmsil olunması daha real görünürdü. Müsəlman fəhlələrə rəhbərlik partiyaya Bakı Sovetində yer almaq hüququ verirdi və milli demokratik qüvvələr özləri də azərbaycanlıların Sovetdə təmsil olunmasında maraqlı idilər. Bu səbəbdən də, demək olar ki, 1917-ci ilin oktyabrına kimi Müsavatın fəaliyyətində Bakı Sovetində təmsil olunmaq vacib məsələ olaraq qalmışdı. Partiyanın lideri M. Ə. Rəsulzadə hələ 1917-ci ilin iyununda Rusiyada inqilabın gedişatını izləyərək yazırdı: *"Rusiya inqilabının cərəyanından görüldüyü vəchlə içəridə bütün iqtidar hökumət fəhlə, soldat və əkinçi şuralarının* (sovetlərin *–A.Ə) əlinə keçmiş olacaq...."*[25] Müsəlmanların ümumiyyətlə Sovet təsisatında təmsil olunmasının zəruriliyini düzgün müəyyən edən M.Ə. Rəsulzadə həmin vaxt çağrılan Cənubi Qafqaz kəndlilərinin qurultayında yaradılması nəzərdə tutulan Diyar Kəndli Sovetində də lazımınca təmsil olunmanın vacib hesab etmişdi.[26]

Digər tərəfdən isə Bakının siyasi həyatında Sovetin rolun artması istiqamətində hadisələrin inkişafı, orada Daşnaksütyun kimi millətçi partiyanın (Partiya 1907-ci ildə dövrün nəbzini tutaraq sosialist siyasi proqramını qəbul etmiş və öz millətçi mahiyyətini pərdələməklə siyasi mübarizəsini inqilabçı bayrağı altında aparmaqda idi.) da yer alması kimi amillər də Müsavat üçün məsələnin mühümlüyünü artırırdı. Lakin Bakı Sovetində yer alan partiyalar Müsavatın sosialist və fəhlə partiyası olmadığını əsas göstərməklə qəti şəkildə bu istəyə qarşı çıxırdılar. Sosialist partiyalar Müsavatı təcridetmə xəttini tutaraq hər vasitə ilə bunu nümayiş etdirirdilər. Partiyanın ictimai-siyasi həyatda antidemokratik hərəkətlərə qarşı

[24] Eldar İsmayilov, *Stepan Şaumyan – obreçenniy na zabveniye. Portret "leqendarnoqo kommunara" bez retuşi,* Şərq-Qərb nəşriyyatı, Baku 2012, s.185.
[25] Məmməd Əmin Rəsulzadə, "Kəndçilər ittifaqı", *Açıq söz,* 14 iyun, № 497, Baku 1917, s.1.
[26] M. Ə. Rəsulzadə, a.g.m., s.1.

heç bir təşəbbüsü dəstəklənmirdi. Hətta Müsavat partiyasının Kornilov qiyamı ilə əlaqədar Bakıda yaradılan Əksinqilabla Mübarizə Komitəsinə daxil olmaq üçün müraciəti də Bakı Soveti tərəfindən rədd edilmişdi.[27]

Lakin Müsavat partiyasının Bakı Soveti ilə əməkdaşlıq cəhdlərinin dəstəklənməməsi müqabilində müsəlman fəhlələrə bəzi zəif "kompensasiya"lar edilirdi. Avqustun 24-də Sovetin təcili iclasında bolşeviklərin tələbi ilə Sovetin yenidən seçilməsi məsələsi müzakirə olunarkən də Bakı Sovetinin İcraiyyə Komitəsinin tərkibinə müsəlmanların da daxil edilməsi təklif olunmuş və onlardan bura cəmi bir nəfər S.M.Əfəndiyev üzv qəbul edilmişdi.[28]

Sonrakı hadisələr isə bunu göstərmişdi ki, Müsavata qarşı olan belə münasibət onun nüfuzunun güclənməsinə heç cür mane ola bilməmişdi. Müsavat partiyası rəhbərliyi ictimai-siyasi işlərdə fəallıq göstərərək kənarda qalmamağa çalışırdı. Partiya rəhbərliyi sənaye şəhərində fəhlə kütləsinin əsas təsir gücü olduğunu yaxşı başa düşürdu.

Məlum olduğu kimi, Rusiyanın hər yanında eser-menşeviklərin Müvəqqəti Hökumətin siyasətinə dəstək verdikləri "vahid və bölünməz Rusiya" naminə ölkədə sabitliyin qorunması siyasi xəttinin əksinə bolşeviklər iqtisadi tələbləri qabardaraq fəhlə hərəkatını genişləndirməyə cəhd edirdilər. Bunun nəticəsi olaraq da 1917-ci ilin sentyabrın 27-dən oktyabrın 2-nə kimi Bakıda müştərək müqavilə tələbi ilə çıxış edən fəhlələrin geniş miqyaslı ümumi tətili keçirilmişdi. Müsavat partiyası bu zaman müsəlman fəhlələrə rəhbərlik gücünü göstərmək üçün imkan qazanmışdı. Partiya əvvəlcədən onun da nümayəndələrinin tətil komitəsinə daxil edilməsi barədə müraciət etsə də, rədd cavabı almışdı. Lakin buna baxmayaraq tətil zamanı hər cür ixtişaşın ola bilməsi ehtimalını göz önünə alan M.Ə. Rəsulzadə müsəlman fəhlələri fəsadlara yol verməməyə çağırmışdı.[29]

Nəticə etibarilə Müsavat faktiki olaraq özünü azərbaycanlı fəhlələrin maraqlarını müdafiə edən partiya kimi göstərə bilmiş və bütün maneələrə baxmayaraq məqsədinə nail olmuşdu. Belə ki, Sovetin eser, menşevik, bolşevik tərkibi Müsavatı Bakı Sovetinin yeni seçkisinə buraxmamağa çalışsa da, artıq müsəlman fəhlələri arasında böyük nüfuza malik olduğunu nümayiş etdirən partiya seçkidə iştirak edə bilmişdi.

---

[27] Aydın Balayev, *Azerbaydjanskoye natsionalnoye dvijeniye v 1917-1918 qq,* Elm, Baku 1998, c.92.
[28] "Protokol ekstrennoqo zasedaniya Soveta Raboçix i voennıh deputatov 24 avqusta", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona, 27 avqusta,* №121, Baku 1917, c.3.
[29] M. Ə. Rəsulzadə, *a.g.e.,* s.351.

**Bakı Sovetinə Oktyabr Seçkilərində Azərbaycanlıların İştirakı**

Bolşeviklərin böyük ümid bəslədikləri seçkilər oktyabın 22-də keçirilmişdi. Müsavat partiyasına qarşı qərəzliliyin göstəricisi olaraq seçkinin keçiriləcəyi dəqiq tarix partiyadan son günə qədər gizlədilmişdi. Üstəlik, seçki zamanı saxtakarlıq edilmiş və müsəlman seçicilərə hazır işarələnmiş nömrələr yazılan seçki vərəqələri paylanmışdı. Nəticədə müsəlman seçicilərin belə vərəqələrdə düzəliş edərək Müsavatın adını yazmaqdan başqa çərələri qalmamışdı. Saxtakarlıq göz qabağında olduğundan seçki komissiyası düzəliş edilən seçki vərəqələrini qəbul etməyə məcbur olmuşdu.[30] Nəticədə Müsavat partiyası 9617, eserlər 6305, bolşeviklər 3823, daşnaklar 528, menşeviklər 687 səs toplamışdılar.[31] Bununla da ərzaq komitələrinə seçkilərdən sonra novbəti dəfə azərbaycanlılar seçki məsələsinə ciddi yanaşdıqlarını sübut etmişdilər.

Seçkilərdə Hümmət təşkilatı bolşeviklərlə ümümi bir siyahı ilə iştirak etmişdi. Təqdim olunan namizəd siyahısında 82 namizəddən 21 nəfəri müsəlman olsa da, onlardan cəmi bir neçə nəfəri Sovetə seçilə bilmişdi.[32] Noyabrın 2-də Bakı Sovetinin İK-nin yenidən təşkili zamanı oraya seçilən üzvlər və namizədlər arasında S. M. Əfəndiyev (bolşevik), M. H. Vəzirov (sol eser) da var idi.[33]

Əlbəttə ki, ayrıca siyahı Hümmət təşkilatına milli psixoloji amilin təsiri altında daha çox yer almağa imkan verə bilərdi. Müsəlman fəhlələr öz nümayəndələrinin Sovetdə azlığına diqqət yetirən bəzi fəal müsəlman fəhlələrinin çıxışlarında Sovetə seçkilər zamanı müsəlmanlar arasından ayrıca namizəd siyahısı tərtib edilməsi kimi təklif səsləndirilirdi.[34] Hətta müsəlman sosilaistlər müsəlmanların ümumi demokratik sovetlərə seçilməsinin zəruriliyini göstərərkən dil səbəbindən hər hansı bir maneə yaranacağı halda ayrıca olaraq müsəlmanların daxil olduğu sovetlərin yaradıla biləcəyini də mümkün hesab edirdilər.[35] Reallıq isə bunun yalnız söz olaraq qaldığını göstərdi.

Sosialistlərin özləri seşkilərin gedişində saxtakarlıq etdkləri halda Müsavat partiyası tərəfindən saxtakarlığın olmasını əsas gətirməklə nəticələrini qəbul etməmişdilər.

Lakin buna baxmayaraq partiya yenə də Bakı Sovetinin işində iştirak etməyə qərar vermişdi. Seçkilərdən bir neçə gün sonra 26-31 oktyabr tarixlərində Bakıda Müsavat

[30] "Vıborı v Sovet deputatov i partiya "Musavat"", *Kaspiy*, 25 oktyabrya, № 239, Baku 1917, s.6.
[31] *Azərbaycan tarixi,* C. 5, s.283.
[32] "Spisok № 5", *Bakinskiy raboçiy,* 18 oktyabrya, № 67, Baku 1917, s.3.
[33] *Bolşeviki v borbe* ..,s.191.
[34] "Na Bibi Eybate", *Znamya truda,* 19 октября, №36, Baku 1917, s.4.
[35] *Bolşeviki v borbe* .., s.126.

partiyasının I qurultayı da keçrilmişdi. Burada partiyanın strategiya və taktikası müəyyən olunmuş, eləcə də "Fəhlə sovetləri" adlı qətnamə də qəbul edilmişdi. Qətnamədə partiya ümumiyyətlə inqilabi Rusiyada sovetlərin oynadığı müstəsna rolu nəzərə alaraq, özünün mümkün qədər çox nümayəndəsinin bu orqana daxil olmasına təşəbbüs edəcəyini bildirmişdi.[36] Göründüyü kimi, bu dövrdə Müsavat partiyası idarəçilikdə təmsil olunmaq uğrunda dinc mübarizə apararaq Bakı Soveti ilə əməkdaşlıq xətti tutmuşdu.

Müsavat partiyasının qurultayı həm də onun demokratik əsaslarını və demokratik sosial bazasını aşkar göstərirdi. Qurultayın iştirakçı olan nümayəndələrin 90 faizi fəhlə və kəndli təbəqəsindən idi.[37] Faktiki olaraq, Musavat partiyası milli-demokratik mahiyyətini gizlətmədən Bakıda ən böyük sosial bazaya malik partiya kimi fəal şəkildə siyasi mübarizəyə qoşularaq, məhz müsəlman fəhlələrin dəstəyi əsasında Sovetə seçilmişdi.

Partiyanın Sovetə keçməsinə maneçilik törədilsə də, seçkidə qazandığı qələbə sosialist partiyaları onunla hesablaşmağa vadar etmişdi. Belə ki, bolşevik çevrilişindən sonra Bakıda da hakimiyyət məsələsinin həlli məsələsində Sovetin eser-menşevik və daşnak tərkibi bloklaşaraq bolşeviklərlə üz-üzə gəlmişdi. Mərkəzdə bolşeviklərin hakimiyyətini qəbul etməyən bu blok şəhərdə ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsin (İTK) yaratmışdı. Bununla razılaşmayan bolşeviklər də öz növbələrində Sovetin genişləndirilmiş iclasını çağıraraq noyabrın 2-də Sovetin Bakıda ali hakimiyyətini elan etmiş və İTK-nin buraxılması barədə qərarın qəbul edilməsinə nail olmuşdular. Belə olduqda bolşeviklərə qarşı birgə fəaliyyət üçün eserlər və menşeviklər Müsavat partiyasın müraciət edək onlara təklif etmişdilər. Lakin Müsavat partiyası bu təklifi rədd etmişdi. Partiyanın mövqeyinə görə Müvəqqəti Hökumətin müharibə və millətlərin taleyinə münasibətinin inqilabi qüvvələri qane etməməsi səbəbindən onun devrilməsinin labüd idi və İTK-in atmaq istədiyi addımları barışıq üçün ziyanlı olduğundan partiya həmin qurumda iştirak edə bilməz. Müsavat partiyasının qəbul etdiyi qətnamədə bolşeviklərin təcrid edilməsi yolu ilə münaqişənin həll edilməsinin zərərli addım olması və inqilabın sol qanadının zəifləməsinin eyni zamanda əksinqilabın sağ qanadının güclənməsinə gətirib çıxaracağı göstərilmişdi.[38]

Oktyabr seçkiləri ilə siyasi rəqiblərinə qarşı tam üstünlüyü əldə edə bilməyən bolşeviklər gələcəkdə öz siyasi iddialarını gerçəkləşdirə bilmək üçün Sovetə növbəti seçkilərin yeni qaydalar əsasında keçirilməsinə nail oldular.

---

[36] A. Balayev, *a.g.e.,* s. 99.
[37] A. Balayev, *a.g.e.,* s. 94.
[38] *Azərbaycan tarixi,* C. 5, s.290.

### Bakı Sovetinə Dekabr Seçkilərinin Azərbaycanlılar Üçün Nəticəsi

Bakı Sovetinə yeni qaydalar əsasında seçkilər 1917-ci il dekabrın 12-16-da keçirilmişdi. Oktyabr seçkiləri demokratik prinsiplərə uyğun şəkildə ümumi, bərabər, gizli və birbaşa qaydada keçirildiyi halda, indi demokratik seçki prinsipləri pozularaq mürəkkəbləşdirilmişdi. Fəhlələr birbaşa işlədikləri yerlərdən öz nümayəndələrini seçməli idilər. Bu cür seçki qaydası nəticə etibarilə müsəlmanların secilməsinin qarşısını alırdı. Fəhlələr birbaşa zavod və fabriklərdən öz nümayəndələrini açıq səsvermə ilə seçməli idilər. Beləki, müsəlmanlar əsas etibarilə fabrik və zavaodlarda deyil, mədənlərdə işləyirdilər. Zavod və fabriklərdə olan müsəlman fəhlələr isə bura təbliğat məqsədi ilə gələn partiya nümayəndələrinin rusca çıxışlarını başa düşmür və iclasa maraq göstərmirdilər. Qəsdən şuluqluq salınan iclaslarda yalnız rusca yaxşı bilən, seçkiyə marağı olanlar qalırdı.[39] Belə olan halda müsavatçılar bir yana, heç bolşevik və ya hümmətçiləri belə dəstəkləyəcək müsəlman fəhləsi qalmırdı. Müsavat partiyası üçün nəticə ümidverici olmamış, bolşeviklərin 51 yerinə qarşı müsavatçılar 21, daşnaklar 41, sağ eserlər 38, sol eserlər 28, menşeviklər 11 yer almışdılar.[40] Bu tərkiblə Müsavat partiyasının Sovetin işinə ciddi təsir edə bilməyəcəyi aydın idi.Bu dəfə də Hümmət təşkilatının bolşevik siyahısı ilə bir neçə nümayəndəsi Sovetə seçilsə də, bu əhəmiyyətli bir nəticə deyildi. Səslərin əksəriyyətini isə bolşeviklər və daşnakalar qazanmışdılar.

### Yeni Tərkibli Sovet və Müsavat Partiyası

Yeni Sovetin seçilməsi Bakıda siyasi vəziyyətin gərgin olduğu vaxta təsadüf etmişdi. Bu zaman Bakı Soveti rəhbərliyi həm Bakı quberniyası daxilində Sovetin hakimiyyətinin möhkəmləndirilməsinə, həm də Qafqazda sovet hakimiyyəti qurmaq işinə rəhbərliyə çalışırdı. Dekabrın 16-da V. İ. Leninin S. Şaumyanı Qafqazın Fovqəladə komissarı təyin etmiş və burada aparılacaq mübarizə üçün Bakı Sovetinə də 500 min rubl pul ayrılmışdı.[41]

Lakin Bakının özündə Sovetin fəaliyyəti qarşısında ciddi maneə yaranmışdı. Belə ki, Sovet ilə yanaşı oktyabrın 29-da seçilən yeni Şəhər Duması da şəhərdə əsas hakimiyyət orqanı olmaq iddiası ilə fəaliyyətə başlamışdı. Bakı Sovetində təmsil olunan bütün siyasi qüvvələrin nümayəndələrinin daxil olduğu Şəhər Duması Sovetə alternativ hakimiyyət orqanı kimi qəbul edilirdi. Bu səbəbdən də, şəhərdə hakimiyyətin hansı orqan məxsus olması barədə

[39] Məmməd Əmin Rəsulzadə, *Əsərləri 1918–aprel 1920*, C.5, Qanun nəşriyyatı, Bakı 2014, s.39.
[40] *Azərbaycan tarixi*, C. 5, s.291.
[41] *Dekretı Sovetskoy Vlasti*, C. 1, Qos.Polit.İzadat, Moskva 1957, s.587.

mübahisələr ortaya çıxmışdı. Dekabrın 31-də Bakı Sovetində bu məsələ ciddi müzakirə olunmuşdu. Bu müzakirələrdə Müsavat partiyası öz siyasi mövqeyini bir daha ortaya qoymuşdu. Müsavat nümayəndəliyi prinsipcə hakimiyyətin sovetlərə keçməsinə qarşı olmadığını, lakin demokratik əsaslarla seçilmədiyi və müsəlman kəndlilərinin orada təmsil olunmadığını əsas gətirərək əvvəlcə Bakı Sovetinin İcraiyyə Komitəsinə daxil olmaqdan imtina etmişsə də, partiya daxilində məsləhətləşmədən sonra komitəyə daxil olmağa razılıq vermişdi.[42] Lakin bu cür bəyanatla Müsavat partiyasının nümayəndələri Bakı Sovetində azərbaycanlı fəhlə və kəndlilərin geniş təmsil olunmadığına diqqət çəkmişdilər.

Bir qədər sonra mənsub olduğu partiyanın həmin dövr üçün siyasi xəttinə aydınlıq gətirən M.Ə. Rəsulzadə öz addımlarındakı məntiqi izah edərək Sovetin təkbaşına hakimiyyətinə qarşı çıxmamaq mövqeyini belə əsaslandırmışdı: *"Biz sovetlərin siyasəti əleyhinə getsəydik, bu toqquşmaya səbəb olardı, belə toqquşma isə dərhal millətlərarası toqquşmaya çevrilər və mövcud şəraitdə bütün Cənubi Qafqazı alova bürüyərdi".*[43] Mart hadisələrindən sonra Müsavat lideri eynilə həmin fikri Zaqafqaziya Seymində səsləndirmişdi. Rəsulzadə çıxışında göstərmişdi ki, bolşeviklərin öz əsgər kütlələri ilə təkcə Bakı üçün deyil, həm də bütün Cənubi Qafqaz üçün təhlükəli olduğu bir vaxtda, hətta boleviklərin qatı düşməni olan partiyaların da bu və ya başqa taktiki gedişlər etdiyi bir zamanda Müsavat partiyası belə bir taktiki mülahizədən çıxış edərək məlum taktiki üsullardan bəhrələnmək zorunda idi.[44] Bolşeviklərin dəstəklənməsinə dair iradlara cavab olaraq isə Müsavat lideri Bakı Sovetinə seçkilərdə cəmi 15 faiz səs topladıqları halda Sovetin işinə təsir göstərməyə qadir olmadıqlarına və bu halda da bolşevizmin dəstəklənməsindən söhbət də gedə bilmədiyini diqqətə çatdırmışdı.[45] Qeyd etmək lazımdır ki, həmin vaxt Bakı Sovetinin yeni İcraiyyə Komitəsinə 6 bolşevik, 6 daşnak, 3 sol eser, 3 eserlə yanaşı, 2 nəfər müsavatçı da daxil edilmişdi.[46]

## Hümmətçilərin Bakı Sovetinin İşində İştirakının Gücləndirilməsi Cəhdləri

Yeni şəraitdə bolşeviklər kəmiyyət etibarilə çoxluqda olan müsəlman fəhlələrin dəstəyinin əhəmiyyətli olmasını dərk edirək müəyyən dərəcədə Hümmət təşkilatının işinin intensivləşdiriləməsinə çalışdılar. Dekabrın 15-də Hümmət tərəfindən 5 gün davam edən Qafqaz müsəlman sosialistlərinin qurultayı çağrılması da bu dövrə təsadüf edirdi. Qurultay

[42] M. Ə. Rəsulzadə, *a.g.e.,* s.39.
[43] "Qorodskaya Duma", *Baku,* 30 yanvarya, № 23, Baku 1918, s.3.
[44] M. Ə. Rəsulzadə, *a.g.e.,* s.39.s.38.
[45] M. Ə. Rəsulzadə, *a.g.e.,* s.39. s.39.
[46] Qadjibaba Azimov, a.g.e., s. 219.

sosialistlərin Qafqaza dair, xüsusən milli məsələlərdə bir istiqamətdə çıxış etmələrinə nail olmaq məqsədi daşıyırdı.[47]

Bu zaman hümmətçilərin, eləcə də hələ çox zəif olan müsəlman eserlərin Bakı Sovetinə keçməsi üçün də cəhdlər artır. Yanvar ayında onların yeni nümayəndələri Sovetə daxil edilmişdi.[48] N. Nərimanov və S. M. Əfəndiyev və başqaları isə Bakı Sovetinin şəhərdə asayişi qorumaq məqsədi ilə yarartdığı quruma – Hərbi İnqilab Komitəsi yanında İnqilabi Tribunala daxil edilmişdilər. [49] Digər tərəfdən müsavatçı fəhlələrin əvəzinə Sovetə hümmətçilərin göndərilməsinə cəhdlər edilirdi. Məsələn, yanvarın ortalarında Tağıyevin toxuculuq fabrikindən Bakı Sovetinə seçilən dörd nəfər müsavatçı fəhlə nümayəndə geri çağrılaraq bolşeviklərlə (hümmətçilər – A.Ə.) əvəz edilmişdi.[50] Bakı quberniyası qəzalarında iş aparmaq üçün 1918-ci ilin yanvarında Bakı Sovetinin nəzdnində fəaliyyət göstərən Qeyri-şəhər komissiyasnın işinə də əvvəlkindən daha artıq sayda hümmətçilər – M. İsrafilbəyov (Qədirli), M. Əzizbəyov, B. Sərdarov cəlb olunmuşdu. Komissiya Azərbaycan qəzalarında bolşeviklərin xeyrinə geniş təbliğat işləri görmək istiqamətində fəaliyyətə başlamışdı. Bolşeviklərin Müsavatın fəhlələr arasında güclü olan mövqeyini sarsıtmaq üçün müsəlman sosialistlərdən istifadə etməsi məntiqli görünsə də, bu təşkilatların fəhlələr arasında real çəkisinə uyğun deyildi. Digər tərəfdən isə bolşevik təşkilatı bu işdə ardıcıllıq göstərmirdi. Sonradan Bakı bolşevikləri öz xatirələrində 1917-1918-ci illərdə bolşeviklərin siyasətindəki nöqsanlar sırasında Hümmət təşkilatına qarşı bolşeviklərin mövqeyindəki qüsurları da göstərmiş, müsəlmanları irəli çəkmək lazım olduğunu və bunun lazımınca edilmədiyini etiraf etmişdilər.[51]

**Müsəlman Bolşeviklərə Münasibətdə Erməni Amili**

Qeyd etmək lazımdır ki, bolşeviklərin öz məqsədlərinin reallaşdırmaq məqsədilə olsa da, müsəlman fəhlələri Sovetə cəlb etmək, onlara etimad göstərmək istiqamətində fəaliyyətinə Bakı Sovetində bəhs edilən dövrdə özünü qabarıq şəkildə biruzə verməkdə olan erməni amilinin artması mənfi təsir etmişdi. Millətçiliyini gizlətməyən daşnaklar həmin dövrdə müsəlman sosialistlərə barışmaz münasibət nümayiş etdirirdilər. Daşnaklar *"müsəlman, türk bolşevik ola bilməz"*-, deyə, Bakı Sovetinin fəhlələrdən təşkil etdiyi qırmızı qvardiyaya

[47] "Firqə həyatı", *Hümmət*, 5 dekabr, №.22, Bakı 1917, s.3.
[48] "V Sovete" (O Suxartseve), *Naş qolos* . 20 yanvarya, №12, Baku 1918, s.2.
[49] *Oçerki..,* s.338.
[50] *Oçerki..,* s.336.
[51] Stenoqramma vecera vospominaniy, orqanizasionnoy qruppı sodeystviya İstpartu Z KP (b), pod. Predsedatelstvom V. Naneyşvili, / *ARPİİSSA*, f, 276, s.2, iş 156, v.1-33., v.32.

qoşulmaq istəyən müsəlman fəhlələrə təzyiqlər və konkret hallarda zorakılıq göstərirdilər.[52] Qeyd etmək lazımdır ki, qvardiyaya bolşeviklərdən başqa eser və menşeviklər, eyni zamanda çox sayda daşnaklar daxil olmuşdular. Daşnaklar qvardiyanın qərargah heyəti seçilərkən hümmətçi H. Sultanovun məsul vəzifəyə təyin edilməsinə mane olmağa çalışmışdılar.[53] Əlbəttə bu cür münasibət hümmətçilərə və digər sosialistlərə qoşulan müsəlman fəhlələrdə müəyyən tərəddüdlər yaradırdı.

### 1918-ci İlin Yanvar-Mart Aylarında Müsavatçıların Sovetdə Fəaliyyəti

1918-ci ilin əvvəlindən Cənubi Qafqazda hadisələrin sürətlə cərəyan etməsi, Zaqafqaziya Komissarlığının antibolşevik fəaliyyətinin artması, fevral ayında isə Zaqafqaziya Seyminin yaranması Müsavatı öz fəaliyyət mərkəzini müvəqqəti olaraq Bakıdan çəkməyə sövq etmişdi. Bakı Sovetinə daxil olan siyasi qüvvələr isə Musavatı təcrid etməyə yönələn siyasəti axıra kimi davam edərək azərbaycanlı əhalinin siyasi iradəsinə laqeyd münasibəti ifadə etməkdə idilər. Bununla belə, Müsavat partiyası 1917-ci ilin dekabrından 1918-ci ilin martınadək olan bir müddətdə Bakı Sovetinin iclaslarında iştirak etməkdə davam etmişdi. Əlbəttə, qərarlar qəbul edilməsinə təsir göstərə bilmədiyinə görə müsavatçıların iclaslarda iştirakı ciddi nəticələrə gətirib çıxarmamışdı. Bununla belə, bəzi mühüm məsələlərdə onlar öz mövqelərini ortaya qoyurdular. Məsələn, Sovetin təşkil etdiyi qırmızı qvardiyalara yalnız rus və erməni fəhlələrin daxil edilməsinin cəmiyyətdə doğurduğu narahatlıqdan dolayı müsavatçı Məlik-Yeqanov Bakı Sovetin iclaslarının birində geniş müsəlman fəhlələrinin etirazının çox aşkar olmasını və milli ziddyyətlərə yol verməmək üçün müsavatçı fəhlələrin də silahlandırılmasının zəruriliyini bildirmişdi.[54] Lakin aydın idi ki, müsəlmanların silahlandırılmasından söhbət gedə bilməzdi və Sovet rayon sovetlərinin süzgəcindən keçən və yalnız fəhlə olan müsəlmanlara silah verilməsi barədə qərar qəbul etmişdi.[55] Faktiki olaraq isə bu qərar da həyata keçirilməmişdi. Ümumiyyətlə isə, müsavatçılar müsəlman sosialistlərlə bir - birinə qarşı mövqe tutduqlarından Sovetin işində də müsəlmanların birgə fəaliyyətindən də danışmaq olmazdı.

### Müsəlman Fəhlələrin Tələbləri

Müsəlman fəhlələr arasında Bakı Sovetində müsəlmanların azlığı məsələsi üzün müddət müzakirə obyekti olaraq qalmışıdı. 1918-ci ilin martına doğru Bakıda vəziyyət

---

[52] A. Aramyan, Ob orqanizasii boevoy drujinı 1917 q, *Arpiissa f,* 268, s.23, iş 36, v.5
[53] *Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı,* C.3, s. 378.
[54] Protokolı zasedaniy Bakinskoqo Soveta , *Arpiissa,* f. 276, s.3, iş 209, v.1-110., v.47.
[55] Protokolı zasedaniy Bakinskoqo Soveta .........., v.1-110., v.47.

gərginləşdikcə müsəlman fəhlələr də Bakı Sovetinin tərkibində onların nümayəndələrinin azlığının hadisələrin gedişinə təsir etdiyi qənaətinə gəlirdilər. Bu baxımdan fevralın 14-də (1 fevral) "İsmailiyyə" binasında 400 nəfər müsəlman fəhlənin toplandığı yığıncaqda baş verənlər diqqəti cəlb edir. Yığıncaq Cənubi Qafqazda baş verən hadisələrlə bağlı təşkil edilmişdi burada müxtəlif təmayüllü Azərbaycan təşkilatlarının nümayəndələri iştirak edirdilər. Yığıncaqda Bakı Sovetinə ünvanlanan tələblər irəli sürülmüşdü. Belə ki, müsəlman fəhlələr özlərinin proporsionallıq prinsipi əsasında Sovetdə təmsil olunması və şəhərdə qayda qanunun yaradılmasını tələb etmişdilər.[56] Bu isə yalnız müsavatçı fəhlələrin deyil, heç bir partiyaya daxil olmayan digər müsəlman fəhlələrin də iradəsinin ifadəsi idi.

**Müsəlman Eserlərin Müsəlman Kəndlilərinin Sovetlərdə İştirakı ilə bağlı Tələbləri**

Həmin dövrdə zəif olan müsəlman eserlər də müsəlmanların Sovetdə təmsil olunmasının zəruriyinin aydın dərk edirdilər. Lakin hümmətçilərdən fərqli olaraq müsəlman eserlər kəndlilər arasında təbliğat aparılmasına daha çox önəm verirdilər, bu da ümumrusiya eserlərinin mövqeyi ilə bağlı idi. Mart ayında mesəlman eserlər özləri üçün mühüm bir addımı atmalı olurlar. Belə ki, Bakı eser təşkilatı nəzdində fəaliyyət göstərən müsəlman eserlər (Onlar sol mövqedə idilər.) öz təşkilatlarını artıq muxtar bir quruma çevirməyin zəruri olduğunu anlayaraq kiçik bir qrup olan müsəlman eserlərin bundan sonra muxtar bir təşkilat olduğunu ("Əkinçi" ) elan etmişdilər. "Əkinçi" öz qarşısına əsas vəzifə olaraq Bakı quberniyasının kəndlərinin təşkilatlandırılması və Bakı Sovetində onlarının sayının artırlması, perspektivdə isə Cənubi Qafqaz kəndlilərinin təşkilatlanması və Diyar Kəndli Mərkəzinin yenidən seçilməsi vəzifələrini qoymuş təşkilat ayrı-ayrılıqda Bakı Sovetində, Bakı Soveti İK-də və Hərbi İnqilab Komitəsində nümayəndəlik hüququ istəmişdi.[57] Təşkilat kəndlilərin yerlərdə də kəndli sovetlərinə seçilmələri üçün təbliğata başlamışdı.

[56] "Sobraniye raboçih musulman" *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona, 17fevralya,* № 27 (249), Baku 1918, c.3.
[57] "Rezolyutsiya prinyataya na obşem sobranii clenov musulmanskoy seksii partii sosialnıh revolyusionerov 18 marta", *Bakinskiy raboçiy,* 25 aprelya, № 74, Baku 1918, s.4.

## Nəticə

Göründüyü kimi, Fevral inqilabından sonra azərbaycanlıların müxtəlif siyasi təmayüllü qüvvələri inqilabi-demokratik hakimiyyətdə – Bakı Sovetində təmsil olunmağa cəhd etmişdilər. Lakin inqilabi-demokratik qüvvələr tərəfindən ilk başdan müsəlman əhaliyə və eləcə də müsəlman fəhlələrə "sinfi özünüdərk cəhətdən qeyri-yetkin" yarlığı vurulmuşdu. Çox zəif sosial bazaya malik olan müsəlman sosialistlərin Sovetdə çox yer tutması obyektiv olaraq mümkün deyildisə, getdikcə güc toplayan və fəhlələr arasında da böyük nüfuz qazanan Müsavat partiyasının Sovetə daxil olması qarşısında süni maneələr yaradılırdı. Zəif olan Hümmət təşkilatından fərqli olaraq azərbaycanlı fəhlələrin arasında böyük nüfuz sahibi olan Müsavat partiyasının Sovetə seçilməsi nə eser-menşevik, nə bolşevik, nə də ki, daşnak qüvvələrinin maraqlarına uyğun deyildi. Xüsusən demokratik təşkilatlarda azərbaycanlıların proporsionallıq prinsipi əsasında təmsil olnmaq istəyi bu qüvvələrin narahatlığına səbəb olurdu. Müsavatın Bakı Soveti ilə dinc əməkdaşlıq cəhdləri nəticə etibarilə inqilabçı demokratlar və ya sosialistlər tərəfindən demək olar ki, heç bir halda dəstəklənmirdi. Mart hadisələri ərəfəsində Bakı Soveti ilə dinc münasibətlərin mümkünsüzlüyü Müsavat partiyası rəhbərliyinə aydın olsa da, mövcud ictimai-siyasi gərginlik şəraitində partiya siyasi dözümlülük göstərməkdə davam edirdi.

Bolşeviklər öz məqsədlərindən dolayı Sovetdə müsəlman fəhlələrin sayının artırılmasına təşəbbüs göstərsələr də, bunun həyata keçirilməsi işində ardıcıllıq göstərilməmişdi. Hümmət təşkilatının Sovetin təkibinə əlahiddə siyasi qüvvə kimi daxil edilməsi konkret bir məsələ kimi qoyulmaması bolşeviklərin obyektiv reallığı – yerli şəraiti və müsəlman fəhlələrin psixologiyasını yetərincə nəzərə almadıqlarını göstərirdi. Halbuki bolşeviklərin ritorikasında bunun əksi səsləndirilirdi və müsəlman sosialistlər özləri də ayrıca müsəlman sovetlərinin yaradılmasının mümükünlüyünü bildirirdilər.Azərbaycan siyasi təşkilatlarının inqilabi demokratik hakimiyyətə münasibətdə iştirak cəhdlərinin təhlili bir daha milli amilin Bakıda gedən ictimai-siyasi mübarizənin bütün aspektlərinə həlledici təsirini ortaya çıxarır.

**Mənbə və Ədəbiyyat**

ALİYAROV, S., Çislennost, professionalnıy i natsionalnıy sostav Bakinskoqo proletariata v period pervoy mirovoy voynı, *Uçyoniye zapiski Bakinskoqo Qosudarstvennoqo Universiteta. Seriya istoriya i filosofiya,* S. 2, Baku 1967. s.31-37.

AQAZADE, K., O rabote partii "Adalet", *Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, (Arpiissa),* fond (f.) 276, siyahı (s.) 2, iş 35.

ARAMYAN, A., Ob orqanizasii boevoy drujinı 1917 q., *ARPİİSSA* f. 268, s.23, iş 36. *Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı:* Sənədlər toplusu, C.3, Çaşıoğlu nəşriyyatı, Bakı 2010.

AZİMOV, Q., *Velikiy oktyabr v Azerbaydajane*, Azerbaydjanskoye Qosudarstvennoye İzdatelstvo, Baku 1987.

*Azərbaycan tarixi,* C.5, Elm nəşriyyatı, Bakı 2001.

"Baku 27 maya", *Kaspiy,* 27 мая, №. 115, Baku 1917.

BALAYEV, A., *Azerbaydjanskoye natsionalnoye dvijeniye v 1917-1918 qq,* Elm nəşriyyatı, Baku 1998.

BAYRAMOV, Q., *Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə dövründə Bakı mədən-zavod komissiyaları (mart 1917-iyul1918)* Elm nəşriyyatı, Bakı 1968.

*Bolşeviki v borbe za pobedu sosialistiçeskoy revolyutsii v Azerbaydjane. Dokumentı i materialı 1917-1918 qq.* Azərnəşr, Bakı 1957.

*Dekretı Sovetskoy Vlasti* , C. 1, Qos.Polit.İzadat, Moskva 1957.

ƏFƏNDİYEV, S. M., *Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən* , Azərnəşr, Bakı 1957.

ƏFƏNDİYEV, S. M., *Seçilmiş əsərləri,* C.1, Azərnəşr, Bakı 1988.

"Firqə həyatı", *Hümmət,* 5 dekabr, №.22, Bakı 1917.

"Firqə həyatı", *Hümmət,* 1 yanvar, №.25, Bakı 1918.

İBRAHİMOVA, A., *Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər),* Elm nəşriyyatı, Bakı 2010.

İSMAİLOV, E., *Stepan Şaumyan – obreçenniy na zabveniye. Portret "leqendarnoqo kommunara" bez retuşi,* Şərq-Qərb, Baku 2012.

"İz mestnoy partiynoy jizni", *Bakinskiy raboçiy,* 28 мaya, №.5, Baku 1917.

"Qorodskaya Duma", *Baku,* 30 yanvarya, № 23, Baku 1918.

"Na Bibi Eybate", *Znamya truda,* 19 октября, №36, Baku 1917.

*Oçerki Kommunistiçeskoy partii Azerbaydjana,* Azerbaydjanskoye Qosudarstvennoye İzdatelstvo, Baku 1963.

"O natsionalizme", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona,* 6 iyunya, № 52, Baku 1917.

Pismo Narimanova, *ARPİİSSA,* f. 609, s.1, iş 206.

"Protokol ekstrennoqo zasedaniya Soveta Raboçix i voennıh deputatov 24 avqusta", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona, 27 avqusta,* №121, *Baku 1917.*

"Protokol obşeqo sobraniya Soveta 1 iyunya, *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona*, 4 iyunya, №.29, Baku 1917.

Protokol zasedaniya Soveta 6 iyunya, *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona* , 11 iyunya, №57, Baku 1917.

Protokolı zasedaniy Bakinskoqo Soveta , *ARPİİSSA,* f. 276, s.3, iş 209.

RƏSULZADƏ, M. Ə., *Əsərləri 1917 – aprel 1918* , C. 4, Qanun nəşriyyatı, Bakı 2013.

RƏSULZADƏ, M. Ə., *Əsərləri 1918– aprel 1920,* C. 5, Qanun nəşriyyatı, Bakı 2014.

RƏSULZADƏ, M. Ə., "Kəndçilər ittifaqı", *Açıq söz,* 14 iyun, № 497, Baku 1917.

Rezolyutsiya prinyataya na obşem sobranii çlenov musulmanskoy seksii partii sosialnıh revolyusionerov 18 marta, *Bakinskiy raboçiy,* 25 aprelya, № 74, Baku 1918.

"Sobraniye raboçih musulman" *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona, 17 fevralya,* № 27 (249), Baku 1918.

"Spisok № 5", *Bakinskiy raboçiy,* 18 oktyabrya, № 67, Baku 1917.

Stenoqramma vecera vospominaniy, orqanizasionnoy qruppı sodeystviya İstpartu ZKP (b), pod. Predsedatelstvom V. Naneyşvili / *ARPİİSSA,* f, 276, s.2, iş 156.

" V Sovete" (O Suxartseve), *Naş qolos,* 20 yanvarya, №12, Baku 1918.

"Vıborı v Sovet deputatov i partiya "Musavat", *Kaspiy*, 25 oktyabrya, № 239, Baku 1917.

"Zasedaniya Soveta raboçih deputatov", *İsvestiya Soveta raboçih i voennıh deputatov Bakinskoqo rayona*, 6 maya, №.29, Baku 1917.